**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№344/3** **31 may 2022-ci il**

# "Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Prosedur Qaydalar" barədə

Auditor fəaliyyətində haqsız rəqabətin aradan qaldırılması və səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, dempinq hallarının aradan qaldırılması, müstəqil auditə ictimai etimadın yüksəldilməsi və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış "Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Prosedur Qaydalar"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Prosedur Qaydalar" bəyənilsin və tətbiqi məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli), Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) və Etika, mübahisələr və intizam Komissiyasına (K.Hüseynov) tapşırılsın ki, Prosedur Qaydalardan irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
3. Bu qərarın və Prosedur Qaydaların mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**